QARABAĞ AZƏRBAYCANDIR!



Polis xalqımıza, müstəqil Azərbaycan dövlətinə, onun hər bir vətəndaşına xidmət edir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

17 dekabr 2020-ci il
Cümə axşamı

№ 46 (3511)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

## ZƏFƏRİN TƏNTƏNƏSİ



### Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib



Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan paradda iştirak ediblər.

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib.



Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş olunub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verib.

*Ardı 2-ci səhifədə.*

## ZƏMANƏMİZİN BÖYÜK AZƏRBAYCANLISI



Dekabrın 12-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın dövlət himni səsləndirilib.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Ümummilli liderin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir hakimiyyət sahibi etməyib. Meydana silahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu xalqımıza güclü, dünya dövlətləri sırasında öz yeri olan Azərbaycanla bərabər onu gələcək uğurlara, zəfərlərə doğru aparan lider də bəxş etdi.

**Müasir Azərbaycanın memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevi dərin ehtiramla anırıq**

Ulu öndərimizin əbədiyyətə qovuşmasının 17-ci ildönümü bu dahi şəxsiyyətin ən böyük arzusunun – işğal altındakı torpaqlarımızın azad olunması ilə nəticələnən şanlı Qələbəmizin sevincini qeyd etdiyimiz bu tarixi günlərə təsadüf edir.

Ümummilli lider illər öncə böyük uzaqgörənliklə deyirdi: “Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun”.

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin bu arzusunu, vəsiyyətini siyasi varisi, layiqli davamçısı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi.

## Prezident bir qrup hərbçini təltif etdi

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Dekabrın 15-də imzalanmış sərəncamla Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş hərbçilər “Azərbaycan Bayrağı” və 3-cü dərəcəli “Rəşadət” ordenləri ilə təltif ediliblər.

Eyni sərəncamla bir qrup hərbçi də “Vətənə xidmətə görə” ordenin 1-ci, 2-ci və 3-cü dərəcələri üzrə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş daha bir qrup hərbçi isə “Vətən uğrunda” medalı ilə təltif olunub.

***Prezident İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.***

***Dövlətimizin başçısı dekabrın 14-də “Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli 2281 nömrəli Sərəncamının ləğv edilməsi barədə sərəncam imzalayıb.***

***Dekabrın 14-də ölkəmizin rəhbəri 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

# ZƏFƏRİN TƏNTƏNƏSİ

*Əvvəli 1-ci səhifədə.*

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış edərək, Vətən müharibəsinin ilk saatlarından Azərbaycanın Türkiyənin dəstəyini hiss etdiyini,














Türkiyə Prezidentinin Zəfər paradında iştirak etməsinin də birliyimizi bütün dünyaya göstərdiyini bildirib.

Uzun illər bütün beynəlxalq tədbirlərdə Qarabağla bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırıldığını qeyd edən dövlətimizin başçısı, Azərbaycanın bu illər ərzində güc topladığını vurğulayıb: “Həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində də Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi”.

Dövlətimizin başçısı xüsusilə qeyd edib ki, bu Qələbənin səbəbkarı Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.

Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Bildirib ki, Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi uğurlarda Prezident kimi İlham Əliyevin böyük rolu var. Dövlətimizin başçısının ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiyinə diqqət çəkən Türkiyə Prezidenti ölkəmizin İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə dastan yazmaqda davam edəcəyinə əminliyini ifadə edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanı sülh və sabitlik əsasında gələcəyi qurmaq üçün cəsarətli addımlar atmağa səsləyib. “Ermənistan xalqının da özlərini keçmişin yalanları ilə ovunduraraq yoxsulluğa məhkum edən diasporun əsarətindən qurtulmasını diləyirik. Qərb imperialistlərinin təhriki ilə bir yerə çatmağın mümkün olmayacağını görməli, düşmənçilik əvəzinə mehriban qonşuluğa əsaslanan əlaqələr yenidən nəzərdən keçirilməlidir. Ermənistan xalqı Qarabağda yaşananlardan dərs götürərsə, bu, bölgədə yeni bir dövrün başlanğıcı olacaqdır”,- deyə bildirib.

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başlayıb.











# Evdən çıxmağın şərti

## İcazələr hansı hallarda verilir?

Sərt karantin rejiminin bərpa edilməsilə SMS-icazə sistemi də yenidən tətbiq edilməyə başlayıb. Yaşayış yerini və olduğu yeri tərk etmək istəyən şəxs əvvəlki sərt karantin dövründə olduğu kimi, mütləq icazə almalıdır.

Ümumi olaraq xatırlatmaq istərdik ki, icazələr yalnız zəruri ehtiyac duyulan hallar üçün




müəyyən edilib. Belə ki, təxirəsalınmaz tibbi zərurət və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etməyə icazə verilir. Bunun üçün rayon və şəhər daxilində 3 saat müddətinə vaxt ayrılıb. Rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir. Əgər zərurət yaranarsa, həmin arayış polis əməkdaşlarına təqdim edilir.

İkinci hal isə ərzaq və digər gündəlik tələbat mallarının və dərman vasitələrinin alınması (ərzaq mağazalarından, supermarketlərdən, bazar və aptekdən) üçün müəyyən edilib. Eləcə də dövlət xidmətlərinin, bank, poçt və fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək mümkündür. Belə vəziyyətlər üçün də gündə 1 dəfə 3 saat müddətinə icazə verilir. Dövlət xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk edən şəxslər üçün geri qayıtma müddəti müvafiq dövlət qurumu tərəfindən verilən arayışla müəyyən edilir.

Yaxın qohumunun dəfnində iştirakla əlaqədar isə hər bir şəxs Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti – Zəng Mərkəzi vasitəsilə icazə almalıdır.

# Daha bir qələbə üçün vuruşaq!

Hər birimiz İkinci Qarabağ müharibəsində əldə etdiyimiz tarixi qələbənin qürurunu yaşayır, bu zəfərin qalibləri olaraq iftixar hissi keçiririk.

Qarabağ cəbhəsində qazanılan qələbəni şərtləndirən əsas amillərdən biri kimi, heç şübhəsiz, birlik və həmrəyliyin, xalq olaraq vahid məqsədə istiqamətlənməyin müstəsna rolu oldu. Qarabağ cəbhəsində hərbi əməliyyatlar artıq başa çatıb, amma yenə də həmrəyliyimizi qorumağa ciddi ehtiyac var. Çünki qarşımızda xalq, ölkə, vətəndaş olaraq daha bir cəbhədə qalib gəlmək vəzifəsi dayanır.

Koronavirus epidemiyası özümüz, ailəmiz, cəmiyyətimiz üçün ciddi təhdid təşkil etdiyinə görə ona qarşı mübarizə aparmaq səngərdəki qələbə qədər əhəmiyyətlidir. Üstəlik, pandemiyanın yaratdığı təhlükə, ziyan hər ötən gün artır. Düşmənə qarşı qətiyyət və rəşadətlə vuruşub zəfər əldə edən hərbçilərimiz kimi, biz də, virusa tam qalib gəlmək üçün şəxsi əzmkarlıq göstərməli, necə deyərlər, sonadək vuruşmalıyıq.

Əslində, bunun üçün xüsusi bir qəhrəmanlıq, şücaət də tələb olunmur. COVID-19-a qarşı fərdi mübarizə tibbi maskadan düzgün istifadə etmək, şəxsi gigiyena qaydalarına əməl etmək və sosial məsafə saxlamaq kimi sadə hərəkətlərdən ibarətdir. Nəzərə almaq lazımdır ki, adi diqqətsizlik yoluxma, yoluxdurma riskini qaçılmaz edir. Aparılan tibbi araşdırmalara görə, virus ağ ciyərlərə ağız və burundan keçir, ancaq burundan ötürülmə ağızdan daha asan, daha sürətli və daha təhlükəlidir. Deməli, mütləq maskalardan burnumuzu bağlayan formada istifadə etməliyik. Adi qaydadır, amma həyati önəm daşıyır.

Pandemiyanın qarşısını almaq üçün hər birimizdən maksimum dərəcədə məsuliyyətli

**Görünməz düşmən COVID-19 virusunun yayılmasının qarşısını almaq hər bir vətəndaşın məsuliyyətidir**

olmaq tələb olunur. Bu yalnız mənəvi məsuliyyət deyil, yeri gəlir, karantin qaydalarını pozmaq ciddi qanun pozuntusu olmaqla hüquqi məsuliyyət də yaradır və bu zaman, şəxsin məsuliyyəti ikiqat artır. Təəssüf ki, virusa yoluxan şəxslərə ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerlərini tərk etməsi halları müşahidə olunur ki, bu da əhalinin sağlamlığını qorumaq məqsədilə indiyədək keçirilən tədbirlərin səmərəliliyinə xələl gətirən faktlardır. Ötən bir neçə günün nəticələrinə nəzər yetirsək arzuolunmaz mənzərənin şahidi olarıq. Belə ki, polis əməkdaşları tərəfindən dekabrın 14-də 51, ondan əvvəlki günlərdə isə bir o qədər də aktiv COVID-19 xəstəsi ictimai yerdə müəyyən olunaraq saxlanılıb və əksəriyyəti barədə cinayət işi başlanılıb.

Bəlkə də belə hallar ona görə baş verir ki, koronavirus epidemiyasına qripin ağır formasıdır deyib, təhlükəyə laqeyd yanaşırıq. Virus isə yayıldıqca yaxınlarımızı, əzizlərimizi itirmək təhlükəsi bizə daha da yaxınlaşır. Bu mübarizədə həm də ağ xalatlı xilaskarlarımızı - həkimlərimizi itiririk. O fədakar insanların ömürlərinin yarım qalmasında epidemiya əleyhinə qaydalara əməl etməyənlərin, səhlənkarlıq göstərənlərin diqqətsizliyi, laqeydliyi var. Kimsə maska taxmadığına, gigiyenik qaydalara əməl etmədiyinə görə, özü də bilmədən başqasının həyatını itirməsinə bais olub və ya olur. Halbuki, hər birimizdən yalnız bir tələb var: özümüzü, yaxınlarımızı qoruyaq. Biz bununla həkimlərə, dövlətə pandemiya ilə mübarizədə böyük dayaq olmuş olarıq.

Dövlət pandemiyaya qarşı resurslarını səfərbər edir, ehtiyatlarını xəstəliklə mübarizəyə sərf etməli olur. Bu, elə bir zamanda baş verir ki, uzun illərdir həsrətində olduğumuz Qarabağı yenidən həyata qaytarmaq lazımdır. Hər birimiz arzulayırıq ki, düşmənin viran qoyduğu o torpaqlar yenidən canlansın, o yerlərə həyat gəlsin, dağıdılan, yağmalanan kəndlər, qəsəbələr, şəhərlər, yurd-yuvalar yenidən tikilsin. Deməli, dövlətə gücünü səmərəli istifadə etməsinə biz də yardımçı olmalıyıq və hazırda bunun yolu, ilk növbədə, hər bir vətəndaşın COVID-19 infeksiyasına qarşı mübarizədə daha məsuliyyətli olmasıdır. Bu mübarizədə heç kimin öz məsuliyyətini inkar etmək haqqı yoxdur.

***R.Mehtiyev***
***polis baş serjantı***

# İctimai rəy məsuliyyət doğurur

## Polisin fədakar xidməti vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir

**Hər gün redaksiyamıza onlarla təşəkkür məktubu ünvanlanır. Vətəndaşlarımız və ya ölkəmizə təşrif buyuran əcnəbilər Azərbaycan Polisinin fədakar xidmətini görür, təqdir edir və hisslərini bu məktublarda ifadə edirlər.**



**Türkiyə vətəndaşı Emrah Gürocak** yazır ki, on ilə yaxındır ki, Azərbaycanda yaşayır və bu müddət ərzində azərbaycanlılardan isti münasibət, mehribançılıq, dürüstlük görüb.

O, məktubunda bu günlərdə başına gələn hadisə haqqında bunları qeyd edir: “Sahibi olduğum restoranda oğurluq baş verdi. 102 Xidməti-Zəng Mərkəzinə müraciət etdim. Heç beş dəqiqə keçməmiş polislər hadisə yerinə gəldilər. Onların peşəkar fəaliyyəti sayəsində qısa bir zaman ərzində oğurluq faktının üstü açıldı və mənə dəyən ziyan ödənildi. Mən DİN rəhbərliyinə və Azərbaycan Polisinə sonsuz minnətdarlığımı bildirirəm”...

Erkan Gürocak torpaqlarımızın işğaldan azad edilməsinin sevincini də bizimlə bölüşür, Azərbaycanın bundan sonra da daha böyük qələbələrə və uğurlara imza atacağına əminliyini ifadə edir.

**Ağsu rayon Bənəcik kənd sakini Alı Əliyev** Vətən uğrunda gedən döyüşlərdə Zəfər qazanmağımız münasibətilə yaşadığı sevinci, qürur hissini daxili işlər orqanlarının əməkdaşları ilə bölüşür. Hər zaman olduğu kimi Vətən savaşında da Azərbaycan Polisinin daim vətəndaşların yanında olduğunu qeyd edən müəllif şəhidlərin dəfn mərasimlərində polis əməkdaşlarının xüsusi iştirakını da təqdir edir, gecəli-gündüzlü xidmət aparan, təhlükəsizliyimizi təmin edən polislərimizi rahat yaşamağımızın təminatçısı adlandırır.

“Baş verə biləcək hər hansı bir hadisədən heç kim sığortalanmayıb, bəzən insan haqsızlığa uğrayır. Hüquqlarımızın qorunmasında operativ və obyektiv fəaliyyət göstərən polislərimizin xidməti təqdirəlayiqdir. Vətəndaş müraciətlərinə həssaslıqla yanaşılmasını yüksək dəyərləndirirəm. Suraxanı RPİ 31-ci Polis Bölməsinin əməkdaşlarının peşəkarlığı sayəsində problemimin həllini tapması məndə bir vətəndaş kimi məmnunluq yaratdı”. Bu sözlər **Əmircan qəsəbə sakini Fərmayıl Həsənovun** təşəkkür məktubundandır.

**Mingəçevir şəhər sakini Təhməz Əliyevin** təşəkkür məktubunda Azərbaycan Polisinin peşəkar fəaliyyətindən qürurla, inamla bəhs etməsi də vətəndaş məmnunluğunun bariz nümunəsidir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Layiqli xidmət üçün şərait yaradılır

## Azərbaycan Polisinin təminatının və təchizatının gücləndirilməsi diqqət mərkəzindədir






Bugünlərdə Daxili İşlər Nazirliyi rəhbərliyinin göstərişi ilə işğaldan azad edilən rayonlarda çətin və şərəfli xidmətlərini uğurla davam etdirən polis şöbələrinin əməkdaşlarına fəaliyyətlərini daha da səmərəli təşkil etmələri üçün yeni xidməti avtomobillər – ABŞ istehsalı olan «Ford»lar təhkim olunub.

Qeyd edək ki, inkişaf etmiş ölkələrin polis orqanlarının istifadəsində olan «Ford» markalı bu avtomobillər yüksək manevr və keçid qabiliyyətinə, eləcə də müasir mobil təchizata malikdir.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# Ölümün ağ rəngi

## Narkomaniya ilə mübarizə birgə fəaliyyət tələb edir

**Aparılan araşdırmalar və qeydə alınan statistika deməyə imkan verir ki, cinayətlərin 80 faizindən çoxu narkomanlar tərəfindən törədilir. Narkotik vasitəni əldə etmək üçün onlar hər yola əl atırlar – hədə-qorxu yolu ilə pul tələb etmə, etibardan sui-istifadə, bir sözlə, cinayət anlamında ağıla gələn nə varsa narkomaniyaya düçar olanlar onu sınaqdan keçirirlər. Bu hallar get-gedə vərdiş halına çevrilir, pis vərdişlər isə cəmiyyətin sütunları sayılan əxlaq normalarını, insani münasibətləri laxladır və beləliklə qarşısı alınmaz faciəyə yol açılır.**

Paytaxtda və yerlərdə aparılan mübarizə və maarifləndirmə tədbirləri bu bəlanın qarşısını almağa yönəlib. Etiraf edək ki, cəmiyyətin dəstəyi olmadan heç bir mübarizə üsulu uğurla nəticələnməz. Təcrübə göstərir ki, mübarizə birgə fəaliyyət tələb edir.

Pandemiyanın hökm sürdüyü bu günlərdə də polis əməkdaşları narkotiklərlə mübarizə tədbirləri zamanı bu zərərli vərdişə aludə olanlarla, narkotacirlərlə maarifləndirici söhbətlər aparır, narkotikdən istifadənin ağır fəsadlara yol açacağı barədə onları məlumatlandırır, gələcəyimiz olan gəncləri bu bəlaya salmamağı tövsiyə edirlər. Nə qədər çətin olsa da bəla ilə mübarizə səngimir, əksinə, daha uğurla aparılır.

Belə ki, bu ilin 9 ayı ərzində DİO əməkdaşları tərəfindən narkotiklərlə bağlı 4052 cinayət faktı qeydə alınıb. Qanunsuz dövriyyədən 1 ton 705 kiloqrama yaxın narkotik vasitə, 118,4 kiloqram psixotrop, 1,705 kiloqram güclü təsir edən və 2,2 kiloqram zəhərli maddə, 9 ton 26,4 kiloqram çətənə və 1,7 kiloqram xaş-xaş bitkiləri çıxarılıb.



Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində ötən ilin müvafiq dövri ilə müqayisədə qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin miqdarı ümumilikdə 631,1 kiloqram təşkil edib. Onlardan 471,3 kiloqram güclü təsiredici, 107,3 kiloqramı isə psixotrop maddələr olub.

Eyni zamanda daxili işlər orqanları tərəfindən 180,7 kiloqramdan çox narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, 81 cinayətkar qrup zərərsizləşdirilib.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Könüllü qurbanlar

## Dələduzlar aldadır, inam və etibardan istifadə edirlər

**Bütün cinayətlərdə, şübhəsiz ki, cinayətkar təqsirkardır, günahkardır. Təqsir və günah ifadələrini başqasının haqqını qəsb etməyin ağırlıq dərəcəsini göstərmək üçün bilərəkdən yanaşı işlədirik. Bəzi cinayət hadisələrində isə təqsirdə az da olsa, zərərçəkənin payı olur. Hüquqi ədəbiyyatın viktimoloji cinayətlər kimi göstərdiyi dələduzluq halları bu qəbildəndir.**

Redaksiyamıza daxil olan təşəkkür məktublarında, əksər hallarda cinayətlərin üstünün açılmasında polisin göstərdiyi peşəkarlıqdan yaranan məmnunluq ifadə edilir, onların içində dələduzların əməllərindən zərərçəkənlərə də rast gəlinir. Təbii ki, polis hər bir cinayət kimi, dələduzluq hallarına qarşı da barışmaz mövqe tutur və zərər çəkən şəxsin qanuni maraqlarının müdafiəsi üçün lazımi tədbirləri həyata keçirir.

Ancaq dələduzların toruna düşməmək üçün insanlarımızın daha ayıq-sayıq olmasında fayda var, çünki cinayətin xarakterinə uyğun olaraq belə hadisələrdə zərərçəkən, adətən, könüllü qurbana çevrilir.

Məsələ ondadır ki, talamanın digər formalarından fərqli olaraq, zərərçəkən əmlakını, pulunu cinayətkara öz əli ilə verir, aldadıldığını, etibarından sui-istifadə edildiyini isə sonradan başa düşür. Deməli, cinayətkarın məqsədi hər hansı öhdəliyin yerinə yetirilməsi deyil, özgənin əmlakını, pulunu mənimsəməkdir.

Eləcə də cinayətkar zərərçəkənlə əvvəllər aralarında mövcud olan etibar və inam hissindən istifadə edib, əməlini gerçəkləşdirir.

Hər hansı bir cinayətin qarşısını almaq və ya özünü qorumaq üçün xüsusi resept mövcud olmadığına görə dələduzlardan zərər görməmək üçün də hazır resept yoxdur. Çünki cinayətlər fərqli situasiyalarda baş verir və bu zaman necə davranmağın yolunu şəxslər öz bacarığından çıxış edərək tapırlar. Ancaq bir reallıq var: dələduzlarla, əsasən, qeyri-rəsmi yollarla müəyyən istəklərinə çatmaq istəyənlər daha çox üzləşirlər. Məsələn, işlə təmin olunma vədi ilə aldadılanların dələduzluqla sıx üzləşmələrinin əsas səbəbi doğru ünvana müraciət etməmələridir. Bunun üçün qanuni yol var ikən, dələduzun təklif etdiyi, ilk baxışdan asan və cəlbedici görünən alternativ yol insanları asanlıqla qurbana çevirir. Odlu kürəni əlinə götürən, təbii ki, əlini yandıracaqdır.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*




Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Masallı rayon sakini, əvvəllər məhkum olunmuş M.Həbibov Yasamal rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqramdan artıq heroin, 175 qram marixuana və elektron tərəzi aşkar edilərək götürülmüşdür.

*****

Sumqayıt ŞPİ 1-ci Polis Bölməsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş F.Abbasov saxlanılmışdır. Ona məxsus “Mercedes” markalı avtomobilə baxış zamanı oradan “MP-654 K Cal” markalı pnevmatik tapança aşkar edilərək götürülmüşdür.

*****

Salyan RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki 3 həyətyanı sahədən ümumilikdə 18 baş qoyun oğurlamaqda şübhəli bilinən Saatlı rayon sakini, əvvəllər məhkum olunmuş R.Cahangirov və Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş S.Həşimov saxlanılmışlar.

*****

Kəpəz RPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki mağazaların birindən 10.000 manat dəyərində geyim əşyaları oğurlamaqda şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş R.Rzayev saxlanılmışdır.

*****

Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Saatlı rayon sakini, əvvəllər məhkum olunmuş Z.Əliyev Qaradağ rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 2 kiloqrama yaxın heroin, 186 qramdan artıq metamfetamin, yaşadığı Sahil qəsəbəsindəki evə baxış zamanı isə oradan 560 qram heroin, 1000 ədəd metadon, 200 ədəd tramadol həbi və 1 ədəd elektron tərəzi aşkar edilərək götürülmüşdür.

*****

Dekabrın 11-də saat 01:00 radələrində Sumqayıt şəhəri ərazisində qurulmuş komendant postunda Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş K.Abbasovun idarə etdiyi “BMW” markalı avtomobil saxlanılmışdır. Yoxlama zamanı polis əməkdaşları K.Abbasovdan “Umarex 343-C1866” markalı tapança aşkar edərək götürmüşlər.

*****

Nizami RPİ 24-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari il sentyabr ayının 15-dən dekabr ayının 4-dək olan müddətdə Bakı şəhər sakini F.Səfərovaya məxsus bank kartından 1100 manat pul oğurlamaqda şübhəli bilinən paytaxt sakini Q.Zamanov saxlanılmışdır.

# Azərbaycanın zəfəri dünya mətbuatında

## Qələbə paradı gündəm oldu


Haberler > Gündem Haberleri > Türk dünyasının zafer ve gurur günü

**Türk dünyasının zafer ve gurur günü**

**Azerbaycan'ın Karabağ'da elde ettiği zafer, Bakü'de Başkan Erdoğan ve Aliyev'in katılımıyla gerçekleştirilen törenle kutlandı. "İki Devlet Tek Millet" şiarıyla omuz omuza veren Türkiye ve Azerbaycan, bir kez daha Türk'ün gücünü tüm dünyaya gösterdi**

HASAN AY

Giriş Tarihi: 11.12.2020 ABONE OL Google News



Bakıda keçirilən Zəfər paradı dünya ictimaiyyətinin də diqqətini çəkib. Hərbi keçid xarici ölkələrin kütləvi informasiya vasitələrinin gündəmdə saxladığı əsas mövzulardan birinə çevrilib.

Qardaş Türkiyənin bir çox telekanalı Qələbə paradını canlı yayımlayıb, yazılı mətbuat isə bu barədə məqalələr, “Tarixi günə damğa vuran şəkillər” başlıqlı xəbərlər dərc ediblər.

Bir çox mətbuat orqanında qeyd olunub ki, paradda düşməndə qorxu, dostda etibar yaradılıb. Vurğulanıb ki, Azərbaycan və Türkiyə əsgərlərinin bir arada olması fərəh hissi doğurur və dünyaya önəmli mesajlar verir.

Paraddan hazırlanmış geniş reportajı oxucularına “Türk dünyasının zəfər və qürur günü” başlığı ilə çatdıran “Sabah” qəzeti yazır ki, “İki dövlət, bir millət” şüarı ilə çiyin-çiyinə verən Türkiyə və Azərbaycan türkün gücünü növbəti dəfə bütün dünyaya göstərdi.




“Yeni Şafak” qəzeti isə xəbəri bir yanda zəfər, bir yanda məğlubiyyət sərlövhəsilə dərc edib. Qəzet yazır ki, Bakıda insanlar qələbə şənliyi üçün küçələri doldurarkən, İrəvandakı qəzəbli izdiham Ermənistanın baş nazirinin istefası üçün etiraz aksiyaları təşkil edib. Küçələrdə etiraz edənlərlə polis arasında toqquşma olub.

Türkiyə mətbuatının diqqətini çəkən məqamlardan biri də Ermənistan hərbi texnikalarının nömrə nişanlarının nümayiş etdirilməsi olub. Nömrələrdən ibarət lövhənin üzərinə “Qarabağ Azərbaycandır!” şüarı  həkk olunmuşdu. Media təmsilçiləri bunu Azərbaycanın Ermənistana tarixi cavabı kimi izah ediblər. Ermənistan Qarabağı işğal etdikdən sonra ələ keçirilən maşınların nömrələrini divara asıb, bölgəyə gələn turistlərə göstərirdi. Qeyd edilir ki, “Azadlıq” meydanındakı mərasimdə nömrələrin göstərilməsi ilə Ermənistana tarixi cavab verilmiş oldu.

Zəfər paradı barədə Türkiyənin əksər media quruluşlarında geniş reportajlar verilib, təqdirlə bəhs olunub.

Azərbaycanda keçirilmiş Zəfər paradı Avopa mətbuatında da işıqlandırılıb. Moldovanın nüfuzlu “Tribuna”, “Noi”, “İPN”, “Newsmaker”, “AVA” “Stiri” və “Deschide” xəbər agentliklərinin rəsmi internet səhifələrində paradla bağlı məlumatlar yayımlanıb. Məqalələrdə Prezident İlham Əliyevin Zəfər paradında söylədiyi nitqinə istinad edilərək Qarabağda işğal altındakı torpaqları azad etməklə Azərbaycanın istəyinə nail olduğu, tarixi ədaləti bərpa etdiyi, Azərbaycanın erməni faşizmindən qurtulduğu vurğulanıb, 30 ilə yaxın Ermənistanın Azərbaycana qarşı işğal siyasətinə son qoymağı hədəf alan 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının bir daha Türkiyənin güclü və birmənalı dəstəyinin şahidi olduğu yer alıb.

İspaniyanın “EFE” informasiya agentliyi və ölkənin qocaman nəşrlərindən biri olan "La Vanguardia” qəzeti Azərbaycanın Qarabağ müharibəsindəki Qələbəsi şərəfinə Bakıda keçirilən Zəfər paradına həsr olunmuş məqalə dərc ediblər.

İspaniya mətbuatı Prezident İlham Əliyevin sözlərindən sitat gətirib: "Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk”.

Xorvatiya mətbuatında da “Bütün dünya üçün Qarabağ Azərbaycandır” adlı məqalə dərc olunub. Bu ölkənin “Vječerni list” onlayn xəbər portalında beynəlxalq məsələlər üzrə ekspert Branimir Vidmaroviçin “Bütün dünya üçün Qarabağ Azərbaycandır. Bəs niyə müharibə?” adlı geniş məqaləsi yer alıb.

Məqalədə Ermənistanın Baş naziri N. Paşinyanın hakimiyyətə gəldikdən sonra əl atdığı təxribatlar sadalanır. Bildirilir ki, öz hərəkətləri ilə danışıqlar prosesini mənasız edən Ermənistan hakimiyyəti Azərbaycanı seçim qarşısında qoyub.


ბაქოში სომხეთის განადგურებული ტექნიკის ნომრების სტენდი გამოჩნდება - PHOTO

10 დეკემბერი, 2020 12:23



აზერბაიჯანის გამარჯვების აღლუმთან დაკავშირებით დამზადდა უზარმაზარი სტენდი, რომელშიც აზერბაიჯანის არმიის მიერ სამამულო ომში განადგურებული, სომხეთის ავტომობილებისა და ტექნიკის სანომრე ნიშნებია დამაგრებული, - ამის შესახებ აზერბაიჯანული მედია წერს.

სტენდი აზერბაიჯანის შეიარაღებული ძალების სამხედრო ტექნიკაზეა დამაგრებული.

Gürcüstanın əsas aparıcı kütləvi informasiya vasitələri də Zəfər paradı ilə əlaqədar azərbaycan, rus, ingilis və gürcü dillərində silsilə materiallar yayıblar.

# Tarixi qaliblər yazır

## Bizdə ilk, dünyada son Qələbə paradı

Dekabrın 10-da Bakıda keçirilən Zəfər paradı rəşadətli ordumuzun düşmən üzərində qələbəsinin təntənəli nümayişi və xalqımızın iftixar günü kimi tarixə düşəcək. Parad bir çox baxımdan əhəmiyyətli hadisə idi. Əvvəla, düşmən üzərində qələbəmizə görə tarix bizi qalib xalq kimi səhfəsinə yazdı. Azərbaycan müstəqilliyinə qovuşandan sonra təqvimdə işğalın, torpaq itkisinin hüznünə bürünmüş günlərin ağrısını çox yaşamışıq və bu qalibiyyətə ürəyimiz sözün əsl mənasında təşnə idi. Zəfər günümüz kədərimizə, yaşadığımız faciələrə məlhəm oldu. O gün sınıq-salxaq düşmən hərbi texnikasının meydana gətirilməsi ilə haqqında mif yaradılan erməni ordusunun miskin halını, müzəffər ordumuzun isə əzəmətini əyani şəkildə bütün dünya gördü. Qürurdan ürəyimiz dağa dönüb, köksümüzə sığmadı.



Azərbaycanın Zəfər paradı dünya üçün də əlamətdar idi. İkinci Dünya müharibəsindən sonra faşizm üzərində Qələbə münasibətilə Moskvada keçirilən tarixi hərbi paraddan bu yana postsovet məkanında keçirilən ilk qələbə paradıydı. Hər iki parad faşizm üzərində qələbənin təzahürüdür. Birincisi alman, ikincisi isə erməni faşizmi!



İndiyədək çoxsaylı hərbi paradlar keçirilib və adəti üzrə, bu, ölkənin gücünü, hərbi potensialını nümayiş etdirmək məqsədilə təşkil olunub. Əgər hərbi qənimətlər meydanlarda nümayiş etdirilirsə, deməli, düşmənin qorxduğu artıq başına gəlib. Ermənistan da bu utancverici aqibəti yaşayan son ölkə oldu.

Tarixi baxımdan, ilk rəsmi parad alman faşizmi üzərində qələbədən sonra SSRİ Dövlət Müdafiə Komitəsinin qərarı ilə 1945-ci ilin iyunun 24-də Moskvadakı Qırmızı meydanda keçirilib. Yeri gəlmişkən, alman faşizmi üzərində qələbənin təmin olunmasında da azərbaycanlıların rolu az olmayıb. 600 mindən artıq soydaşımız  ən qızğın döyüş bölgələrində düşmənə qarşı mübarizə aparıblar. Yəni səngərlər də bizə doğmadır, səngərlərdə qazanılan qələbə də!

Moskvada Qırmızı meydanda bütün cəbhələrin birləşmiş qoşunları təntənəli yürüşlə keçmişdilər. Lenin Mavzoleyin qarşısında 200 nasist bayrağı yerə atılmış, əsgərlərin bu bayraqları tutan əlcəkləri paraddan sonra yandırılmışdı.

1945-ci ildə Moskvadan sonra Berlində Qələbə paradı keçirilib. Sentyabrın 7-də məğlubiyyətə uğramış nasist Almaniyasının paytaxtında antihitler koalisiyasının iştirakı ilə keçirilmiş parad tarixə Berlin paradı kimi düşüb. Paradda SSRİ, ABŞ, Birləşmiş Krallıq və Fransa iştirak edib.

Bu dörd müttəfiq dövlətin qoşunları bir neçə ay sonra başqa bir Berlin paradında da iştirak ediblər. Həmin parad almanların təslim olmasının birinci ildönümündə - 8 may 1946-cı ildə  keçirilib. Bundan sonra keçirilən paradlarda isə artıq sovet qoşunları iştirak etmirdi,  müttəfiqlər arasında artıq soyuq müharibənin “küləyi” əsməyə başlamışdı.

*R.Mehtiyev*
*polis baş serjantı*

# Oxucuların diqqətinə!

1933-cü il martın 9-dan bugünə kimi işıq üzü görən  “Mübariz keşikdə” qəzeti Daxili İşlər Nazirliyinin rəhbərliyinin təşəbbüsü ilə gələn ildən “Polis” başlığı altında dərc ediləcəkdir.

İnanırıq ki, tarix yaşıdı “Mübariz keşikdə”nin yolunu davam etdirməyi qarşısına məqsəd qoyan “Polis” DİN-in həyatında baş verənlərdən tutmuş, ölkə gündəmində maraqla izlənilən ən mühüm hadisələri işıqlandırmaqla yanaşı, milli kimliyimizi, tarixi əzəmətimizi, ən ümdəsi, dilimizin şəhdini-şirəsini kiçik həcmi ilə, ancaq böyük fədakarlıqla qoruyacaq və gələcək nəsillərə ərmağan edəcəkdir.

102 yaşlı Azərbaycan Polisinin, günümüzün qəhrəmanlarının tribunası, söz xəzinəsi olan “Mübariz keşikdə” illər ötsə də daim xatırlanacaq və bundan sonra davamçısı kimi işıq üzü görəcək “Polis”in yollarında əbədiyaşar söz heykəli kimi mayak olacaqdır.

**2021-ci ilin I yarısı üçün “Polis” qəzetinə abunə olmağa tələsin!**

## Dekabr ayının 9-dan 15-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 125 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 56 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 230, o cümlədən borclu şəxs qismində axtarışda olan 144 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 13 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 68 fakt müəyyən edilmişdir.

# Düşünmək var olmaqdır

## Düşünüb danışmaq isə böyük fəlakətlərin qarşısını alır

Ədalət kainatın ruhudur.

**Ö.Xəyyam**

Düşüncəni dəyiş ki, dünyanı dəyişəsən.

**Brayan Treysi**

Ağıllı o adamdır ki, sahib olmadıqlarına görə kədərlənmir, əksinə sahib olduqlarına görə şaddır.

**Demokrit**

Özünə pərəstiş edənlər həqiqəti dərk edə bilməzlər.

**Eynəlqüzat – Abdulla ibn Məhəmməd.**

İynənin ucu ilə dağı yerindən tərpətmək asandır, nəinki ürəkdən hədsiz lovğalıq pasını atmaq.

**Əbu Haşim Xufi.**

Özünüzə qarşı tələbkar və başqalarına mərhəmətli olduqda sizin düşməniniz olmaz.

**Çin atalar sözü.**

Təhlükəni gözləməkdənsə, ona qarşı mübarizə etmək yaxşıdır.

**A.V.Suvorov.**

Dünyada ən alçaq sifətlərdən biri cürətsizlikdir. Cürətsiz adam heç bir uğura müvəffəq ola bilməz.

**Üzeyir Hacıbəyov.**

Malik olduğun pul sənə azadlıq verir, arxasınca qaçdığın pul – səni kölə edir.

**Jan Rak Russo**

# Bilməyimiz vacibdir

## Fiziki qüsurlu insanlara kömək etmək hər birimizin borcudur

1). Əlil arabası ilə hərəkət edən şəxslə ünsiyyət qurarkən, çalışın ki, onunla üzbəüz əyləşəsiniz.

2). Unutmayın ki, hər hansı bir fərdi əşya, cihaz (əlil arabası, qoltuq ağaçı və s.) həmin şəxsin toxunulmazlıq zonasına daxildir. Onlardan icazə almadan arabalarına toxunmayın, söykənməyin, itələməyin. Onlara kömək etmədən öncə buna ehtiyac olub-olmadığını soruşun.

3). Görmə qabiliyyətini tam itirənlərə yardım etdiyiniz zaman istiqamətləndirin, əlini bərk sıxmayın və həmin şəxsi arxanızca dartmayın. Görmə qabiliyyəti məhdud olanları oturdarkən əllərini oturacağın arxalığına söykədin. Bu halda kiminsə köməyi olmadan özləri də rahat otura biləcək.

4). İlk olaraq, əlil və sağlamlıq imkanları məhdud insanların özünə müraciət edin, yanında olan yardımçısı ilə ünsiyyətdə olub ona diqqət yetirməmək doğru deyil. Görmə qabiliyyətini itirənlərə hörmət əlaməti və etiket qaydalarına uyğun olaraq özünüzü və yanınızdakıları təqdim edin.

5). Eşitmə qüsurlu insanlarla ünsiyyət zamanı əsla qışqırmayın. Əgər o sizə reaksiya vermirsə, o zaman diqqəti cəlb etməkdən ötrü yüngülcə çiyninə toxunun. Çox zaman eşitmə qabiliyyəti olmayan insanlar işarə dilindən istifadə edir. Tərcüməçi olduğu halda siz tərcüməçiyə deyil,  ünsiyyəti birbaşa həmsöhbətinizə yönəltməlisiniz.

6). Danışmaqda çətinlik çəkən insanlarla ünsiyyət zamanı onları səbrlə sona qədər dinləyin, tələsdirməyin, sözünün bitdiyinə əmin olduqdan sonra siz fikrinizi bildirin.

7). Vətən uğrunda yaralanan, əlil olan, sağlamlığını itirən vətəndaşlarımıza, qazilərimizə dərin hörmət və ehtiram hissi ilə yanaşmalıyıq. Bu, bizim ən ümdə və müqəddəs borcumuzdur.

Əziz həmkarlar! Əlil və sağlamlıq imkanları məhdud olan insanlarla ünsiyyət qurmaq üçün qeyd olunanlara riayət etsək, ictimaiyyətin xoş münasibətini həm vətəndaş, həm də polis olaraq üzərimizdə hiss etmiş olarıq.

*M.K*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik